| | | | |
|---|---|---|---|
| Ümumi məlumat | Fənnin adı, kodu və kreditlərin sayı | PSYCH 422**,** Psixoterapiya, 3 KU (6 AKTS) | |
| | Departament | Psixologiya | |
| | Proqram (bakalavr, magistr) | Bakalavr | |
| | Tədris semestri | 2024/25-ci tədris ilinin payız semestri | |
| | Fənni tədris edən müəllim (lər) | Mələk Kərimova | |
| | E-mail: | Mkerimova@khazar.org | |
| | Telefon: | - | |
| | Mühazirə otağı/Cədvəl | Nefçilər korpusu | |
| | Məsləhət saatları | Dərsdən əvvəl 30 dəq | |
| Prerekvizitlər | - | | |
| Tədris dili | Azərbaycanca | | |
| Fənnin növü (məcburi, seçmə) | Məcburi | | |
| Dərsliklər və əlavə ədəbiyyat | 1. Beck, J. S. (2011). *Cognitive behavior therapy: Basics and beyond*. Guilford Press.<br>2. Corey, G. (2005). *Theory and practice of counseling and psychotherapy*. Brooks/Cole.<br>3. Young, J. E., Klosko, J. S., & Weishaar, M. E. (2003). *Schema therapy: A practitioner's guide*. Guilford Press.<br>4. Linehan, M. M. (2015). *DBT skills training manual* (2nd ed.). Guilford Press.<br>5. Padesky, C. A., & Mooney, K. A. (1990). *Clinical applications of cognitive therapy*. W.W. Norton & Company.<br>6. Yalom, I. D. (2002). *The gift of therapy: An open letter to a new generation of therapists and their patients*. Harper Perennial. | | |
| Kursun vebsaytı | | | |
| Tədris metodları | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| | Praktiki məsələnin təhlili | + | |
| | Digər | + | |
| Qiymətləndirmə | Komponentləri | Tarix/son müddət | Faiz (%) |
| | Aralıq imtahanı | 8 ci həftə | 30 |
| | Fəallıq | Semester boyu | 5 |
| | [illegible] | [illegible] | [illegible] |
| | Tapşırıq 2 (təqdimat) | dekabr | 10 |
| | Davamiyyət | Semester boyu | 5 |
| | Final imtahanı | Yanvar | 40 |
| | Yekun | | 100 |

| | |
|---|---|
| Qiymətləndirmə meyarları | Fəallıq və Prezentasiya üzrə Qiymətləndirmə Kriteriyaları (10 bal)<br><br>Tələbənin dərslərdə və qrup müzakirələrində iştirakı, həmçinin müstəqil şəkildə mövzuları analiz etməsi aşağıdakı kriteriyalar əsasında qiymətləndiriləcəkdir:<br><br>1.Dərslərdə iştirak (5 bal)<br>- 5 bal: Tələbə dərslərdə daimi iştirak edir və aktiv şəkildə suallar verir, qrup müzakirələrinə qatılır.<br>- 2 bal: Tələbə dərslərdə qismən iştirak edir və yalnız bəzən müzakirələrdə fəal olur.<br>- 0 bal: Dərslərdə iştirak etmir və qrup müzakirələrində aktivlik göstərmir.<br><br>Fəallıq (5 bal)<br><br>Mövzuların müstəqil şəkildə analizi və əsaslandırılmış arqumentlər irəli sürmək (2 bal)<br>- 2 bal: Tələbə müzakirə olunan mövzuları müstəqil şəkildə dərinliklə analiz edir və güclü, məntiqi arqumentlər irəli sürür.<br>- 1 bal: Tələbə mövzunu anlayır, lakin arqumentləri səthi və kifayət qədər əsaslandırılmayıb.<br>- 0.5 bal: Analiz zəif və arqumentlər əsaslı deyil.<br>- 0 bal: Heç bir analiz və ya arqument irəli sürmür.<br><br>Elmi məqalələrin axtarışı və təhlili (3 bal)<br><br>- 3 bal: Tələbə son dərc olunmuş elmi məqalələri müntəzəm olaraq axtarır, oxuyur və dərsdə təhlillər aparır.<br>- 2 bal: Elmi məqalələri araşdırır, lakin təhlillər səthi və məhduddur.<br>- 1 bal: Araşdırmalar az və ya zəif təhlillər təqdim olunur.<br>- 0 bal: Heç bir elmi məqalə araşdırması aparılmayıb.<br><br>Prezentasiya (5 bal)<br>Prezentasiyanın qiymətləndirilməsi mövzu ilə əlaqəlilik, mənbələrin düzgün seçilməsi, təqdimatın yaradıcılığı və plagiatın qarşısının alınmasına əsasən aparılacaqdır:<br>1. Məlumatın mövzu ilə əlaqəsi (1 bal)<br>1 bal: Prezentasiya mövzu ilə tam əlaqəli, düzgün və yaxşı strukturlanmışdır.<br>0.5 bal: Məlumat qismən mövzuya uyğundur və ya təqdimatda qeyri-dəqiqliklər var.<br>0 bal: Məlumat mövzuya uyğun deyil.<br>2. Müxtəlif mənbələrdən istifadə (1 bal)<br>1 bal: Müxtəlif mənbələrdən geniş istifadə olunmuş və onlar düzgün şəkildə təqdim olunmuşdur.<br>0.5 bal: Mənbələr məhdud və ya uyğun deyil.<br>0 bal: Mənbələr istifadə edilməmiş və ya düzgün təqdim olunmamışdır.<br>3. Elmi mənbələrin düzgün istifadəsi və arqumentlərin dəstəklənməsi (1 bal)<br>1 bal: Son dərc olunmuş elmi məqalələrdən istifadə olunmuş, arqumentlər elmi cəhətdən əsaslandırılmışdır.<br>0.5 bal: Mənbələrdən qismən istifadə olunmuşdur, arqumentlər zəifdir.<br>0 bal: Elmi mənbələrdən istifadə edilməmiş və arqumentlər əsaslandırılmamışdır.<br>4. Yaradıcılıq və yenilik (1 bal)<br>1 bal: Prezentasiya yaradıcılıq və innovativ yanaşmalarla təqdim olunmuşdur.<br>0.5 bal: Yaradıcılıq zəifdir, təqdimat sadədir.<br>0 bal: Yaradıcılıq yoxdur.<br>5. Plagiatın olmaması (1 bal)<br>1 bal: Prezentasiyada plagiat yoxdur və tələbə öz orijinal fikirlərini irəli sürüb.<br>0.5 bal: Qismən plagiata rast gəlinir.<br>0 bal: Prezentasiya tam plagiatdır. |

| | |
|---|---|
| Kursun təsviri | Bu kursda tələbələrə müxtəlif növ psixoterapiyalar haqqında həm nəzəri, həm də praktiki biliklər təqdim olunur. Tələbələr, hər bir psixoterapiya yanaşmasının strukturunu və əsas prinsiplərini öyrənərək, terapevt-pasiyent münasibətində ünsiyyətin xüsusiyyətlərini təhlil edəcəklər. Hər bir nəzəriyyə çərçivəsində psixoloqun mənimsəməli olduğu xüsusi bacarıq və vərdişlərə diqqət yetiriləcək və bu bacarıqların praktikada necə effektiv tətbiq olunması üzərində işləniləcəkdir. Kursun məqsədi tələbələrin müxtəlif psixoterapiya metodlarını peşəkar şəkildə tətbiq etmə qabiliyyətini inkişaf etdirməkdir. |
| Kursun məqsədləri | Psixoterapiya nəzəriyyələrinin mənimsənilməsi: Tələbələrə müxtəlif psixoterapiya yanaşmalarının nəzəri əsaslarını öyrətmək və onların inkişaf tarixini, prinsiplərini dərk etməyi təmin etmək.<br>Terapevtik münasibətlərin təhlili: Terapevt-pasiyent münasibətlərində ünsiyyətin əsas xüsusiyyətlərini və bu ünsiyyətin hər bir terapiya növündə necə fərqləndiyini anlamaq.<br>Psixoloq bacarıqlarının inkişafı: Hər psixoterapiya nəzəriyyəsinə xas olan xüsusi bacarıq və vərdişləri öyrənmək və praktikada effektiv şəkildə tətbiq etmə qabiliyyətini inkişaf etdirmək.<br>Praktik bilik və təcrübə: Psixoterapiya nəzəriyyələrinin praktik tətbiqinə dair biliklər əldə etmək və bu bilikləri müxtəlif hallarda tətbiq edə bilmək.<br>Tədqiqat və təhlil bacarıqlarının inkişafı: Müasir psixoterapiya metodları ilə bağlı elmi tədqiqatları oxumaq, təhlil etmək və bu məlumatları praktikada necə istifadə edəcəyini öyrənmək.<br>Etik prinsiplərə riayət: Psixoterapiya prosesində etik məsələləri anlamaq və tətbiq etmək, terapevtik müdaxilələrin etik çərçivədə yerinə yetirilməsini təmin etmək. |
| Tədrisin (öyrənmənin) nəticələri | Psixoterapiya yanaşmalarının müqayisəsi və təhlili: Tələbələr müxtəlif psixoterapiya nəzəriyyələrini və onların əsas fərqlərini anlamaq və müqayisə etmək bacarığına sahib olacaqlar.<br>Terapevtik ünsiyyətin xüsusiyyətlərinin dərk edilməsi: Hər bir psixoterapiya yanaşmasında terapevt-pasiyent arasındakı ünsiyyətin necə qurulacağını və bu ünsiyyətin hansı məqsədlərə xidmət edəcəyini anlaya biləcəklər.<br>Psixoloji terapiya texnikalarını praktik tətbiq etmə bacarığı: Tələbələr hər bir nəzəriyyəyə uyğun olaraq psixoterapevtin istifadə etdiyi xüsusi bacarıqları öyrənib, bunu real terapiya prosesində tətbiq etməyi bacaracaqlar.<br>Təhlil və problem həll etmə: Tələbələr terapiya prosesində qarşılaşdıqları problemləri təhlil edib, fərqli psixoterapiya yanaşmalarını tətbiq etməklə effektiv həll yolları təklif edə biləcəklər.<br>Müasir tədqiqatların təhlili və tətbiqi: Tələbələr psixoterapiya ilə bağlı ən son elmi tədqiqatları oxuyub təhlil edəcək və onları öz terapevtik yanaşmalarına tətbiq edə biləcəklər.<br>Etik standartlara uyğun fəaliyyət: Psixoterapevtik müdaxilələr zamanı etik prinsiplərə riayət etməyi və bu prinsiplərin tətbiqini dərk edəcəklər.<br>Mənbələrə və elmi dəlillərə əsaslanan yanaşma: Tələbələr terapevtik yanaşmalarını elmi dəlillərə və mənbələrə əsaslandıraraq praktik tətbiqdə effektiv şəkildə istifadə etməyi öyrənəcəklər. |

| Həftə | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|
| 1. | Psixoterapiyalara giriş<br>Psixoloq terapevtik şəxsiyyət kimi<br>Terapevtik prosesdə psixoloqun dəyərləri və terapiya prosesi | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq (s.1-13) |

| | | |
|---|---|---|
| 2. | Psixoanalitik terapiya | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq (s. 57-93) |
| 3. | Adleryan terapiya | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq<br>(s. 95-122)<br>Mövzularla əlaqələi tədqiqat və məqalələr |
| 4. | Varoluşçu (Existential) terapiya | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq<br>(s.129-162)<br>Mövzularla əlaqələi tədqiqat və məqalələr |
| 5. | Şəxs mərkəzli (Person-Centered) terapiya | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq<br>(s.163-195)<br>Mövzularla əlaqələi tədqiqat və məqalələr |
| 6. | Geştalt terapiya | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq (s.197-229)<br><br>Mövzularla əlaqələi tədqiqat və məqalələr |
| 7. | EMDR | Müəllimin hazırladığı materiallar |
| 8. | Aralıq imtahanı | |
| 9. | Davranışçı (Behavioral) Terapiya | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq<br>(s.231-267)<br><br>Mövzularla əlaqələi tədqiqat və məqalələr |
| 10. | Koqnitiv-Davranış Terapiyası | Beck JS. Cognitive behavior therapy: Basics and beyond. Guilford Press; 2011<br>(s.269-303)<br><br>Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram |
| 11. | Şema terapiya | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq<br><br>Mövzularla əlaqələi tədqiqat və məqalələr |
| 12. | Gerçəklik (Reality) Terapiyası | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq<br>(s.311-336)<br><br>Mövzularla əlaqələi tədqiqat və məqalələr |
| 13. | Pozitiv Psixoterapiya | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq<br>(s.367-400)<br><br>Mövzularla əlaqələi tədqiqat və məqalələr |
| 14. | Postmodern yanaşmalar / Digər psixoterapiyalar | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq<br>(s.367-400) |

| | | |
|---|---|---|
| 15. | Bütünləşdirici (inteqrativ) bir perspektif<br>Dərsin dəyərləndirilməsi | Corey, G. (2013). Psikolojik danisma, psikoterapi kuram ve uygulamalari. Ankara: Mentis Yayıncılıq<br>(chapter 14) |
| 16 | Psixoterapiya praktikasında etik məsələlər | |